AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARI ÜZRƏ ƏHALİNİN PUL GƏLİRLƏRİ VƏ İSTEHLAK XƏRCLƏRİ SƏVİYYƏSİNİN TƏDQİQİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"
Elm sahəsi: İqtisad elmləri

İddiaçı: Aytəkin Oqtay qızı Məmmədova

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Suqra İnqilab qızı Hümbətova

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Xatirə Mail qızı Hüseynova

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Bulud Cahangir oğlu Sadıqov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Jalə Rəhman qızı Əliyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya Şurası

Dissertasiya Şurasının
Sədri:
_____ iqtisad elmləri doktoru, professor
Yaşar Atakişi oğlu Kəlbiyev

Dissertasiya Şurasının
Elmi katibi:
_____ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Suqra İnqilab qızı Hümbətova

Elmi seminarın sədri:
_____ iqtisad elmləri doktoru, professor
Rəsul Ənvər oğlu Balayev

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Azərbaycanın davamlı inkişafının təmin olunması naminə əhalinin həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması dövlətin diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev qeyd etdiyi kimi "*Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır".* Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-dövlət sektorunun və özünüməşğulluğun inkişafı, əhalinin pul gəlirləri və istehlak xərclərinin tərkibinin təkmilləşdirilməsi, həyat keyfiyyətinin və sağlamlığının, gəlirlərinin artırılması üçün həyata keçirilən mühüm tədbirlər bunun təcəssümüdür. Həmçinin, bu istiqamətdə strateji yol xəritələrində əhali gəlirlərinin artırılması üçün əsaslandırılmış hədəflər, regional inkişafla bağlı proqramlar, 2030-cu ilə qədər inkişaf prioritetləri, konsepsiyalar və digər konseptual sənədlərin qəbulu bu məqsədin nə dərəcədə əhəmiyyətli olduğunu təsdiqləyir. Lakin son illər baş vermiş pandemiya və dünya ölkələrində davam edən maliyyə böhranı əhali gəlirlərinə təsirsiz ötüşməmişdir. Nəzərə alsaq ki, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında özünüməşğulluq və iqtisadi fəaliyyətin qeyri-monetar formaları üstünlük təşkil edir, əksər inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər bu dönəmdə tənzimləmə mexanizmlərindən istifadə etməklə əhalinin gəlirlərinin artırılmasına dəstək göstərməkdədirlər. Bir tərəfdən baş verən inflyasiya, digər tərəfdən pandemiya dövründə işgüzar fəaliyyətin məhdudlaşdırılması Azərbaycanda əhalinin pul gəlirləri və istehlak xərcləri səviyyəsinin tədqiqini aktuallaşdırmışdır.

Məlumdur ki, həyat səviyyəsinin ölçülməsində üstünlük bir çox hallarda istehlak xərclərinin ölçülməsinə verilir. Xüsusilə inkişaf etməkdə olan ölkələrin statistik sistemləri bu statistikadan yoxsulluq, bərabərsizlik və sosial təcrid kimi hadisələri təhlil etmək üçün istifadə edir. 1973-cü ildə Əmək Statistiklərinin 12-ci Beynəlxalq Konfransında qəbul edilmiş "Ev təsərrüfatlarının gəlir və xərclərinin tədqiqi üzrə beynəlxalq standartları"nın müasir dövrün tələblərinə cavab verməməsi ilə gəlir və xərclər üzrə statistik məlumatların hazırlanması üçün yeni beynəlxalq təlimatlar işlənib hazırlanmışdır. Amma yuxarıda qeyd

olunan tədbirlə yanaşı, Azərbaycanın inkişaf etməkdə olan ölkə kimi istehlak xərcləri üzrə yeni normaların işlənib hazırlanmasına ehtiyac vardır. Həmçinin iqtisadi regionların təbii-iqlim şəraitinin, resurs və imkanlarının, adət-ənənələrinin əhalinin həm pul gəlirlərinə, həm də istehlak xərclərinə təsirinin təhlili regional bərabərsizliyin aradan qaldırılması baxımından zəruridir. Belə mühüm məqamlar dissertasiya işinin aktuallığını artırır.

Dissertasiya işində xarici iqtisadçı alimlərdən C.R.Hiks, A.Smit, İ.Fişer, F.Boye, A.Marşal, P.A.Samuelson, B.A.Raisberq, Yu.M. Ostapenko, P.V.Savçenko, Yu.P.Kokina və digərlərinin baxışlarında əhalinin gəlirlərinin tərkibi və formalaşması, tənzimlənməsi, istehlakın istiqamətləri kimi məsələlər diqqət mərkəzində saxlanılır. Azərbaycanlı iqtisadçılardan Səmədzadə Z.Ə., Nuriyev Ə.X., Alıyev İ.H., Quliyev T.Ə., Hüseynova F.A., Bayramova S.R., Qurbanova S.Ə., Əlirzayev Ə.Q., Əlirzayeva T.Ə. və digərlərinin tədqiqatları mühüm əhəmiyyət kəsb edir. Onların tədqiqatlarında əhalinin gəlirlərinin növləri, gəlirlərin artırılması və həyat səviyyəsinin inkişafı problemləri məqsədli şəkildə araşdırılır. Bütün bu və digər araşdırmalar mühüm əhəmiyyət kəsb etsə də, lakin bilavasitə Azərbaycanda regional səviyyədə əhalinin pul gəlirləri və istehlak xərclərinin tədqiqində vacib məqamlara diqqətin artırılması önəmli hesab olunur.

Əhalinin pul gəlirləri və istehlak xərclərinin, həyat səviyyəsinin inkişafı, yoxsulluğun azaldılması ilə bağlı konseptual baxışlar son 20 ildə diqqəti cəlb etməkdədir. Klassik iqtisadçı alimlərdən C.R.Hiks, A. Smit gəlir mənbələrini izah edir, M. Fridman istehlak xərclərinin həyata keçirilməsinin gələcək gəlirlərlə əlaqəsi olduğunu əsaslandırır.

Əhalinin gəlirlərinə aid olan yanaşmaları sistemləşdirdikdə, biz bunun iki istiqamətdə, yəni kəmiyyət və keyfiyyət baxımından izahının verildiyini də görə bilirik. Əhalinin gəlir və xərclərinin formalaşdırılması, tərkibi və dəyişmə tendensiyası, dinamikası, ümumilikdə əhalinin qazanc və gəlirlərinə təsir edən amillərin təhlil edilməsi, əhali seqmentləri üzrə gəlirlərin xüsusiyyətləri və fərqliliyinin səbəbləri, ümumilikdə fərqli sosial qruplar arasında gəlirlərin axını, bölgüsü və yenidən bölgüsünü səciyyələndirmək müasir dövrün əsas məsələlərindən hesab olunur. Kəmiyyət baxımından yanaşma C.R. Hiks, İ. Fişer, F.Boye, P.Fon Lippe, A. Marshall, P.A. Samuelson, B.A.

Raisberg və başqalarının əsərlərində geniş şərh edilir. Qeyd edək ki, C.Keyns ilk dəfə olaraq dünyanın inkişaf etmiş ölkələrində vətəndaşların orta gəlir səviyyəsinin tələb olunan minimum gəlir səviyyəsindən xeyli yüksək olduğuna diqqət çəkmişdir. Neo-keynsçilər gəlirlərin dövlət tərəfindən tənzimlənməsini müdafiə edərək cəmiyyətin bütün iqtisadi maraqlarını uyğunlaşdırmaq üçün indikativ planlaşdırma prinsipini təklif etdilər. Post-keynsçi P.Samuelson, C.Tobin, U.Heller, R.Solou, R.Klauer, P.Sraffa və başqaları gəlirləri, xüsusilə əmək haqqını tənzimləmə siyasətini əsaslandırır və bunu, inflyasiya və işsizliklə mübarizənin əsas vasitəsi olaraq irəli sürürlər. F.Hayekə görə dövlətin iqtisadiyyata müdaxiləsinin icazə verilən maksimum həddi yaşa görə pensiya və işsizlik müavinətlərinin ödənilməsindədir. Rifah nəzəriyyəsinin nümayəndəsi A.Piqu tərəfindən əhalinin gəlirləri ilə həyat səviyyəsinin əlaqəli təhlili, K.Marks tərəfindən iş qüvvəsinin dəyər kəmiyyətini müəyyən edərkən ilk dəfə "həyat səviyyəsi" anlayışını təqdim etməsi, Ernst Engel tərəfindən ev təsərrüfatlarının gəlirləri ilə müəyyən bir mal və ya xidmət üçün xərclər arasındakı əlaqəni izah edən iqtisadi nəzəriyyə - Engel qanunu, A.Müller-Armand tərəfindən izah edilən və V.Repke, V.Oyken, L. Erhard tərəfindən davam etdirilən "sosial bazar iqtisadiyyatı" ideyası və cəmiyyətdə olan sosial ziddiyyətləri yumşaltmaq və əhalinin orta təbəqələrinin həyat səviyyəsini yüksəltməklə bağlı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir.

Bu kimi elmi-nəzəri yanaşma və tədqiqatlar, yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, əhalinin gəlirlərinin tənzimlənməsi ilə bağlı hər il təsdiq edilən yaşayış minimumu və ölkə başçısı İ.Əliyevin təsdiq etdiyi rəsmi sənədlərin, ölkə əhəmiyyətli normativ-hüquqi aktların, əhalinin gəlir və xərcləri sahəsindəki tənzimləmə tədbirlərinin nəzərə alınması dissertasiya işinin hazırlanmasını aktuallaşdırmışdır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycan əhalisinin pul gəlirləri və istehlak xərcləri ilə bağlıdır. Regionlar üzrə əhalinin pul gəlirlərinin və istehlak xərclərinin səviyyəsinin müəyyən edilməsi tədqiqatın predmetini təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasının regionları üzrə əhalinin pul gəlirlərinin və istehlak xərclərinin səviyyəsini təhlil edərək nəzəri və əməli

əhəmiyyətli təkliflər irəli sürməkdir.

Tədqiqat zamanı aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

- Əhali gəlirləri və xərcləri haqqında nəzəriyyələr və müasir konsepsiyaları araşdırmaq və əhalinin həyat səviyyəsinin formalaşmasında gəlir və xərclərin rolunu müəyyən etmək;
- Əhalinin gəlir və xərclərinin qiymətləndirilməsində metodoloji problemləri təyin etmək;
- Əhalinin gəlir və xərclərinin müasir vəziyyətini təhlil etmək;
- İqtisadi inkişaf modelləri və onların əhalinin gəlir və xərclərinə təsirini müəyyənləşdirmək;
- Respublikamızda gəlir və xərclərin diferensasiyasını qiymətləndirmək;
- Əhali gəlirlərinin qeyri-bərabər bölüşdürülməsini təhlil etmək;
- Qiymət və inflyasiya səviyyəsinin əhali gəlirləri və xərclərinə təsirinin müəyyənləşdirilməsi və idarə edilməsinin təhlilini vermək;
- Yoxsulluq səviyyəsinin azaldılması yollarına dair təkliflər irəli sürmək.

Tədqiqat metodları. Materialların işlənib hazırlanması zamanı statistik təhlil aparılıb, müqayisəli təhlil, qruplaşdırma, sistemli dəyərləndirmə, retrospektiv analiz və riyazi-məntiqi araşdırma metodlarına üstünlük verilib.

Müdafiəyə təqdim olunan əsas müddəalar:

- Region əhalisinin pul gəlirlərinin və istehlak xərclərinin tənzimlənməsinə davamlılıq və dayanıqlılıq prizmasından yanaşmaq zəruridir;
- Əhali gəlirlərinin hesablanması onun mövcud olanlardan fərqli, yeni formalaşma mənbələrinin müəyyənləşdirilməsilə əlaqəlidir;
- Praktikada regionlarda əhalinin gəlir və xərclərinin inkişaf xüsusiyyətləri fərqlidir;
- Əhalinin gəlir və xərclərinin tənzimlənməsinin hüquqi əsasları önəmli rola malikdir;
- Əhalinin gəlir və xərclərinin inkişafı ölkənin inkişaf vəziyyəti və əlverişli iqtisadi mühitlə sıx bağlıdır;
- Dövlət və qeyri-dövlət sektorunda əhali gəlirlərində fərqliliklər mövcuddur;
- Pandemiya dövrü və digər böhran halları əhalinin gəlir və xərc

sahəsində tənzimləmə istiqamətlərinin müəyyən olunmasını zəruriləşdirir;

- Əhalinin pul gəlirləri və istehlak xərclərinin səmərəliliyinin və tənzimlənməsinin artırılması mövcud metodoloji bazanın təkmilləşdirilməsini vacibləşdirir.

Tədqiqatın elmi yeniliyi. Dissertasiya işinin başlıca elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Əhalinin gəlir və xərcləri ilə bağlı nəzəri - metodoloji yanaşmalar institusional dəyişikliklər nəzərə alınmaqla təsnifləşdirilmişdir;
- Region əhalisinin pul gəlirlərinin və istehlak xərclərinin tənzimlənməsinə davamlılıq və dayanıqlılıq prizmasından yanaşılmasının zəruriliyi əsaslandırılmışdır;
- Əhalinin pul gəlirləri və istehlak xərclərinin qiymətləndirilməsində metodoloji problemlər müəyyən edilmiş və onların aradan qaldırılması imkanları əsaslandırılmışdır;
- Azərbaycan Respublikasının regionları üzrə əhalinin pul gəlirləri və istehlak xərclərinin uzunmüddətli dinamikası sistemləşdirilmiş və müqayisəli statistik təhlil əsasında regionlararası fərqlərin əsas xüsusiyyətləri müəyyən edilmişdir;
- Azərbaycan Respublikası və regionlar üzrə Cini indeksi hesablanmışdır;
- Əhalinin gəlir və xərclərinin səviyyəsinin ölkə və onun regionlarının inkişaf vəziyyəti və əlverişli iqtisadi mühiti ilə sıx bağlılığı aşkara çıxarılmışdır;
- Regionlar üzrə gəlir və istehlak göstəricilərinin proqnozlaşdırılmasında müasir rəqəmsal və süni intellekt əsaslı yanaşmalardan istifadə imkanları əsaslandırılmışdır;
- Əhalinin pul gəlirləri ilə son istehlak xərcləri arasında kəmiyyət əlaqəsini qiymətləndirmək məqsədilə reqressiya modeli qurulmuş və model əsasında gəlirlərin istehlak xərclərinin dəyişməsinə təsiri statistik baxımdan qiymətləndirilmişdir;
- Əhalinin pul gəlirləri və istehlak xərclərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülmüşdür.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işinin nəticələri ölkədə əhali gəlirləri və xərclərinin təkmilləşdirilməsi əsasında təminatının yaxşılaşdırılmasının, dəyişən şərait və tələblərə

uyğun təşkili üçün elmi-praktiki əsasları təyin etməyə yönəlib. Tədqiqat zamanı əldə edilən nəticələr ölkə üzrə və regionlarda əhalinin gəlir və xərclərinin tərkibinin daha təkmil və effektiv olmasına, bu istiqamətdə dövlət tənzimlənməsinin uğurlu olmasına təsir edə bilər. Dissertasiya materiallarından həyat keyfiyyətinin artırılması ilə əlaqəli normativ-metodiki material və sənədlərin tərtibatında, gəlir siyasəti üzrə tədris materialları və digər vəsaitlərin formalaşdırılmasında istifadə edilə bilər.

Tədqiqatın aprobasiyası. Dissertasiya işinin əsas müddəaları beynəlxalq və respublika səviyyəsində keçirilmiş bir çox elmi konfranslarda etdiyi məruzə və çıxışlarda, beynəlxalq nüfuzlu xarici elmi jurnalda və Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısında olan dövri elmi jurnallarda çap edilən məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

Dissertasiyanın həcmi və strukturu. Giriş, üç fəsildən, səkkiz paraqrafdan, nəticə və təkliflərdən, istifadə olunan mənbə və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın I fəsli 93.743 işarədən, II fəsli 71.799 işarədən, III fəsli 77.545 işarədən ibarət olmaqla, dissertasiya işi ümumilikdə 243287 işarədən ibarətdir. Dissertasiya işində 21 qrafik, 15 cədvəl və 1 sxem qeyd edilmişdir.

DİSSERTASİYANIN MÜNDƏRİCATI

Giriş

I Fəsil. Əhali gəlirləri və xərclərinin nəzəri-metodoloji əsasları

1.1. Əhali gəlir və xərclərinin iqtisadi mahiyyətinə nəzəri yanaşmalar

1.2. Əhalinin həyat səviyyəsinin formalaşmasında gəlir və xərclərin əhəmiyyəti

1.3. Əhalinin gəlir və xərclərinin qiymətləndirilməsi metodologiyası

II Fəsil. Azərbaycan Respublikası və onun regionlarında əhalinin gəlir və xərclərinin müasir vəziyyəti və inkişaf meylləri

2.1. Azərbaycanda əhalinin gəlir və xərclərinin dünya ölkələri ilə müqayisəli təhlili

2.2. Azərbaycanda əhalinin gəlir və xərclərinin müasir vəziyyəti və xarakterik meylləri

2.3. Əhalinin pul gəlirləri və istehlak xərclərinin regional qiymətləndirilməsi

III Fəsil. Azərbaycanda əhalinin gəlir və xərclərinin tənzimlənməsi perspektivləri

3.1. İnflyasiya səviyyəsinin əhali gəlirləri və xərclərinə təsiri istiqamətləri

3.2. Yoxsulluq səviyyəsinin azaldılmasında gəlir və xərclərin rasionallaşdırılması yolları

Nəticə və təkliflər

İstifadə edilmiş ədəbiyyat siyahısı

DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın **girişində** mövzunun aktuallığı əsaslandırılmış, işin məqsədi, qoyulmuş məqsədə çatmaq üçün həll edilmiş məsələlər, müdafiəyə çıxarılan əsas müddəalar, alınan nəticələrin elmi yeniliyi və praktiki əhəmiyyəti verilmişdir.

Dissertasiyanın "**Əhali gəlirləri və xərclərinin nəzəri-metodoloji əsasları"** adlı **birinci fəslində** əhalinin gəlir və xərclərinin iqtisadi mahiyyətinə nəzəri yanaşmalar verilmiş, əhalinin həyat səviyyəsinin formalaşmasında gəlir və xərclərin əhəmiyyəti açıqlanmış, eləcə də əhalinin gəlir və xərclərinin qiymətləndirilməsi metodologiyası ilə bağlı məsələlər tədqiq edilmişdir.

Əhalinin gəlirlərinin formalaşma mənbələri və xərclərinin istifadə istiqamətlərinə fərqli elmi yanaşmaların olması onların təhlil edilməsini zəruri edir. İndiyə qədər mövcud nəzəri yanaşmalara diqqət yetirdikdə, gəlirlərin və xərclərin tərkibi, formalaşma prinsipləri və onlara təsir edən amillərin fərqli bucaq altında təhlil edilməsini görürük. Mövcud yanaşmaları[1] bir araya gətirərək qeyd edə bilərik ki, əhalinin gəlirlərinin formalaşmasının əsas prinsiplərinə əməyə görə,

[1] *Мартин Рэвелльон. Сравнительные оценки бедности. Всемирный Банк - 1994, 127 стр.*

mülkiyyətə görə və sosial təminatlı normalara görə bölgü prinsipləri aiddir.

Ümumiyyətlə, "əhalinin gəlirləri" kateqoriyasını müəyyən edən nəzəri yanaşmaları aşağıdakı kimi göstərmək olar:

- əhalinin əsas ehtiyaclarını ödəmək qabiliyyətini əks etdirən insan kapitalının ümumi inkişaf indeksinin əsas hissəsi kimi[2];
- ölkə əhalisinin iqtisadi rifahı və həyat səviyyəsinin təyin edilməsi üçün zəruri bir əsas kimi[3];
- cəmiyyətdə qüvvədə olan açıq və gizli xarakterli razılaşmalar toplusunun nəticəsi kimi[4];
- əhalinin müəyyən müddət ərzində xərcləyə biləcəyi maksimum pul miqdarı kimi[5];
- müəyyən dövr ərzində müxtəlif mənbələrdən ayrı-ayrı fərdlərin və ya ailələrin əldə etdikləri pul və natural formada daxilolmaların və pulsuz xidmətlərin məcmusu kimi[6].

Əhalinin gəlirləri ilə yanaşı, xərclərinin də təhlili ölkədə olan mövcud vəziyyəti xarakterizə edir və bu səbəbdən nəzəriyyəçilər xərclərin tərkibi və gəlirin istifadəsi istiqamətlərini təhlil edərək bir çox iqtisadi problemlərin həlli yolunu axtarırlar. Ümumilikdə, əhalinin xərclərini - istehlak, məcburi, investisiya və digər xərclərə bölmək olar. Əhalinin xərcləri bir şəxsin şəxsi ehtiyaclarını ödəmək üçün malların alınması və xidmətlərin ödənilməsi xərclərinin məcmusudur, məcburi ödənişlər və əhalinin müəyyən kateqoriyalarının xüsusi tələblərindən yaranan xərclərdir.

Bir sıra ədəbiyyatlarda sosial siyasətin tətbiqinin modelləri (konservativ, liberal, sosialist, sosial-demokrat) geniş təhlil olunur. Amma COVİD-19 virusunun dünyada geniş yayılması və pandemiya halına keçməsi səbəbindən sosial yönümlü iqtisadi inkişaf modelləri

---

[2] *Смит А. Исследование о природе и причинах богатства народов. — М.—Л.: ОГИЗ-Соцэкгиз, 1935. Т.1*

[3] *Пигу, А. Экономическая теория благосостояния: пер. с англ. / А. Пигу; общ. ред. С. П. Аукуционек. – М.: Прогресс, 1985. – 512 с*

[4] *Суворов, А. Б. Доходы и потребление населения: макроэкономический анализ и прогнозирование. – М.: Макс Пресс, 2009. – 86 с*

[5] *Хикс, Дж. Р. Стоимость и капитал / Цифровая книга. – Директмедиа Паблишинг, 2007. – 291 с.*

[6] *Bayramova, S.R., Qurbanova, S.Ə.. Gəlirlər və əmək haqqı siyasəti. Dərslik. Bakı-2009*

kimi son zamanlar "İsveç", "Çin", "Alman" və digər ölkələrin (ABŞ, Yaponiya) təcrübəsi geniş müzakirələrə və araşdırmalara səbəb olmuşdur[7],[8],[9].

Gəlir baxımından əhalinin təbəqələşmə dərəcəsinin təhlili praktikasında gəlir fərqliliyinin əmsallarından - kvartillərin, kvintillərin, desillərin nisbi yayınmalarından istifadə olunur. Beləliklə, bu əmsallar 25% (20 və ya 10%) ən zəngin əhalinin minimum gəliri, 25% (20 və ya 10%) ən yoxsul əhalinin maksimum gəlirini neçə dəfə üstələdiyini göstərir. 2024-cü il üzrə muzdlu işlə əlaqədar əldə edilən gəlirlər birinci desil üzrə adambaşına ayda 57 manat, onuncu desil üzrə 313,3 manat və müvafiq olaraq aradakı nisbət 5,5 dəfə təşkil etmişdir. Özünüməşğulluqdan gələn gəlirlər üzrə birinci desil (88 manat) və onuncu desil (200 manat) arasındakı fərq 2,3 dəfə olmuşdur. Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər 1-ci kvintildə 67,3 manat olduğu halda, 5-ci kvintildə 262,7 manat, onlar arasındakı fərq isə 3,9 dəfə olmuşdur. Mülkiyyətdən gələn gəlirlər üzrə 1-ci və 5-ci kvintillər arasındakı fərq 23 dəfədir. Özünüməşğulluqdan gələn gəlirlər üzrə birinci kvintil (89,3 manat) və beşinci kvintil (175,4 manat) üzrə fərq 1,96 dəfə olmuşdur. Aparılan təhlil göstərir ki, illər üzrə muzdlu işdən əldə edilən gəlirlərdə kvintillər arasındakı qeyri-bərabərlik ümumilikdə artma meyli nümayiş etdirmişdir. Bunun əksinə olaraq, mülkiyyətdən əldə edilən gəlirlər üzrə qeyri-bərabərlik nəzərəçarpacaq dərəcədə azalmışdır. Özünüməşğulluqdan əldə edilən gəlirlər üzrə isə kvintillər arasında fərq digər gəlir mənbələri ilə müqayisədə daha aşağı səviyyədə olmuşdur ki, bu da müvafiq gəlir növünün daha bərabər bölüşdürüldüyünü göstərir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən kvartil əmsalı təqdim edilmədiyi üçün təhlili təqdim etmək mümkün olmamışdır.

Əhalinin gəlir və xərcləri haqqında məlumatların əldə edilməsində problemlər mövcuddur. Birincisi, əhalinin əmək haqqı və pul

---

[7] Церкасевич Л. В., Современные тенденции социальной политики в странах европейского союза, СПб., 2002, с. 27

[8] Гонтмахер Е., Трубин В. Эволюция системы социальной поддержки населения // Общество и экономика. – 2000. –№910, стр.3-36

[9] Aron, Janine, John V. Duca, John Muellbauer, Keiko Murata, and Antony Murphy (2012) "Credit, Housing Collateral, and Consumption: Evidence from Japan, the UK, and the US," Review of Income and Wealth/ № 58 (3), pages 397-423

gəlirlərinin differensiallaşma əmsalları müxtəlif informasiya mənbələrindən istifadə etməklə hesablanır. Qeyd edək ki, əmək haqqının differensasiyası iri və orta müəssisələrdə aparılan, əmək haqqı baxımından işçilərin seçmə sorğularının məlumatlarına əsasən qiymətləndirilir və bu zaman kiçik müəssisələr istisna edilir. Əhalinin pul gəlirlərinin differensiallaşdırılması isə ev təsərrüfatlarının seçmə sorğularının materialları əsasında qiymətləndirilir. İkincisi, bu və digər seçmə üsulu ilə əldə edilən məlumatlar ümumi əhalinin göstəricilərinə uyğun olması üçün korrektə edilərək düzəldilir. Sorğuda əhalinin bütün təbəqələri tam əhatə olunmur. Şəxsi ev təsərrüfatlarından kənarda yaşayan şəxslər bu sorğuya daxil edilmir və statistik məlumatda əks olunmur. Digər problem ev təsərrüfatlarının tez-tez sorğuda iştirak etməkdən imtina etməsi, bir çox hallarda yüksək gəlirli ev təsərrüfatlarının bu sorğudan yayınması və ya məlumatları düz verməməsidir. Nəticədə, əhalinin yoxsul qrupları üçün göstəricilərin birbaşa qiymətləndirilməsinin qeyri-obyektivliyi təhlükəsi yaranır. Bu, öz növbəsində, milli və regional səviyyədə istehlak qiymətləri indeksi, əhalinin gəlirlərə görə diferensiallaşma xüsusiyyətləri və s. kimi mühüm göstəricilərin qiymətləndirilməsinin etibarlılığını pisləşdirə bilər.

Beləliklə, yuxarıda qeyd edilən metodoloji problemlərin həlli yollarına dair aparılan araşdırmalar bizə aşağıdakı qənaətə gəlməyə imkan vermişdir:

Beynəlxalq təcrübə və fərdi yerli tədqiqatların nəticələrinin sübut etdiyi kimi, seçmə sorğunun nəticələrinə əsasən göstəricilərin qiymətləndirilməsinin qeyri-kafi etibarlılığı problemlərinin əksəriyyətinin həlli əlavə məlumatların istifadəsi (sorğunun nəticələri ilə bağlı xarici məlumatların toplanması) əsasında həyata keçirilə bilər. Məsələn, gəlir səviyyəsi daha yüksək olan ev təsərrüfatlarının gəlir və xərclərini daha dolğun uçota almaq üçün əlavə məlumatlar kimi əhalinin və ya onların ayrı-ayrı təbəqələrinin gəlirləri haqqında (məsələn, vergi orqanlarının məlumatları və fiziki şəxslərin gəlirlərinin bölüşdürülməsi ilə bağlı məlumat), pərakəndə ticarət haqqında məlumatlar, əmək qabiliyyətli əhalinin ayrı-ayrı qruplarının əmək haqqı haqqında məlumatlar, makroiqtisadi statistikanın məlumatları və s ola bilər. Bu məqsədlə istifadə oluna bilən xarici

informasiya müəyyən tələblərə cavab verməli, xüsusilə də kifayət qədər etibarlı olmalı, əhalinin müvafiq kateqoriya və qruplarını əhatə etməli, eyni və ya oxşar hesabat dövrünə və qəbul tezliyinə malik olmalı, sorğunun nəticələrinə metodoloji cəhətdən uyğun və əlçatan olmalıdır. Bundan əlavə, bu cür əlavə xarici məlumat həm məlumatların toplanması və emalı mərhələlərində, həm də göstəricilərin qiymətləndirilməsi mərhələsində istifadə edilə bilər.

Dissertasiyanın **"Azərbaycan Respublikası və onun regionlarında əhalinin gəlir və xərclərinin müasir vəziyyəti və inkişaf meylləri"** adlanan **ikinci fəslində** Azərbaycanda əhalinin gəlir və xərclərinin dünya ölkələri ilə müqayisəli təhlili aparılmış, Azərbaycanda əhalinin gəlir və xərclərinin müasir vəziyyəti və xarakterik meylləri araşdırılmış, əhalinin pul gəlirləri və istehlak xərclərinin regional qiymətləndirilməsi aparılmışdır.

Dissertasiyada istifadə edilmiş Dövlət Statistika Komitəsinin məlumatları əsasında 2005–2025-ci illər üzrə hesablamalar əhalinin pul gəlirlərinin manatla 11,15 dəfə, ABŞ dolları ilə 6,21 dəfə artdığını göstərir. Eyni dövrdə əhali xərcləri manatla 13,48 dəfə, ABŞ dolları ilə 7,5 dəfə yüksəlmişdir. Beləliklə, xərclərin artım tempi gəlirlərin artım tempini üstələmişdir. Bu fərq əhalinin istehlak tələbatının genişlənməsi ilə yanaşı, yığım potensialının məhdudlaşması riskini də göstərir.

Qənaətlərin 2005-ci illə müqayisədə 2025-ci ildə manat ifadəsində 1,39 dəfə artması, ABŞ dolları ifadəsində isə 0,77 dəfə olması diqqətəlayiqdir. Bu nəticə uzunmüddətli dövrdə nominal gəlir və xərc artımının yığım imkanlarına eyni dərəcədə müsbət təsir göstərmədiyini göstərir. Xüsusilə devalvasiya və inflyasiya şəraitində xarici valyuta ilə ifadə edilmiş yığım göstəricilərinin dəyişməsi ev təsərrüfatlarının maliyyə dayanıqlığı baxımından mühüm siqnaldır.

Qeyd etmək lazımdır ki, 2020-ci ildə 2019-cu illə müqayisədə gəlirlərin həcmi pandemiya səbəbindən azalsa da, muzdlu işlə əlaqədar gəlirlər artmışdır. Pandemiya ilə əlaqədar pensiya, müavinət və sosial yardımlarda xüsusilə artım müşahidə edilmişdir. Mənfi hal kimi kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlə özünüməş-ğulluqdan əldə edilən gəlirlərin 2019-cu ilə nisbətən 2020-ci ildə azalmasının olmasıdır.

2005–2025-ci illərdə gəlirlərin artım sürəti iqtisadi rayonlar üzrə

fərqlənmişdir. 2025-ci ilin ilkin məlumatlarına əsasən, Abşeron-Xızı iqtisadi rayonu və Bakı şəhəri yüksək artım göstəriciləri ilə seçilmiş, Naxçıvan Muxtar Respublikasında isə artım nisbətən aşağı olmuşdur. Bu fərqlər regionların iqtisadi inkişafını, məşğulluq imkanlarını və gəlirlərin ərazi üzrə bölgüsünü qiymətləndirmək baxımından əhəmiyyətlidir. Bununla belə, nominal gəlirlərin artması real rifahın eyni dərəcədə yüksəlməsi demək deyil; qiymət dəyişiklikləri və əhali sayı da nəzərə alınmalıdır.

Hesablamalar nəticəsində bəlli olur ki, 2005-ci ilə nisbətən 2025-ci ildə (2025-ci ilin ilkin məlumatına əsasən) əhali gəlirləri respublika üzrə 11,2 dəfə, o cümlədən Bakı şəhəri üzrə 12,98 dəfə, Abşeron-Xızı iqtisadi rayonunda 15,85 dəfə, Gəncə-Daşkəsən iqtisadi rayonunda 9,48 dəfə, Şəki-Zaqatala iqtisadi rayonunda 7,46 dəfə, Lənkəran-Astara iqtisadi rayonunda 7,44 dəfə, Dağlıq Şirvan iqtisadi rayonunda 8,67 dəfə, Quba-Xaçmaz iqtisadi rayonunda 9,28 dəfə, Qazax-Tovuz iqtisadi rayonunda 8,33 dəfə, Qarabağ iqtisadi rayonunda 9,27 dəfə, Mərkəzi Aran iqtisadi rayonunda 9,16 dəfə, Naxçıvan Muxtar Respublikası üzrə 6,21 dəfə, Mil-Muğan iqtisadi rayonunda 7,6 dəfə, Şirvan-Salyan iqtisadi rayonunda isə 9,55 dəfə artım müşahidə olunur. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə məlumatlar Dövlət Statistika Komitəsi tərəfindən 2023-cü ilədək qeyd olunmayıb. Məlumat üçün bildirək ki, bu regionda əhali gəlirləri 2023-cü ildə 254,5 milyon manat, 2024-cü ildə 274,9 milyon manat, 2025-ci ildə isə 312,2 milyon manat təşkil etmişdir. Bu rəqəmlər nominal gəlirlərin artımını göstərsə də, regionun iqtisadi imkanlarının genişləndirilməsi, məşğulluğun dayanıqlı mənbələrinin yaradılması və adambaşına düşən real gəlirlərin yüksəldilməsi ayrıca hədəf olmalıdır.

2024-cü ilin təhlili bizə bir sıra iqtisadi rayonlarda, əsasən də Abşeron-Xızıda, Şərqi Zəngəzurda, Bakı şəhərində əhali gəlirlərinin əsas mənbəyinin muzdlu iş, yəni əmək haqqı olduğunu göstərir ki, bu da həmin iqtisadi rayonlarda əhalinin əksər hissəsinin urbanizasiya səbəbindən muzdlu əməyə üstünlük verməsi ilə bağlıdır. Özünüməşğulluqdan, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirin ən yüksək göstəriciləri Qazax-Tovuz, Naxçıvan MR və Mərkəzi Aran iqtisadi rayonlarına təsadüf edir. Bu da həmin rayonlarda kənd təsərrüfatı məhsullarının istehsalının, əl işi və

sənətkarlığın inkişafı ilə əlaqədardır. Mülkiyyətdən gələn gəlir üzrə Bakı şəhəri liderdir. Bunun əsas səbəbi mülkiyyətin paytaxtda olması, ona tələbin daha yüksək və icarə haqqının baha olmasıdır. Alınmış cari transfertlərin Şirvan-Salyan, Mil-Muğan iqtisadi rayonlarının payına düşməsi müşahidə olunur. Ölkə xaricindən alınan vəsaitlərin daha çox Qazax-Tovuz, Dağlıq Şirvan, Bakı , Şəki-Zaqatala iqtisadi rayonlarına düşməsi bu iqtisadi rayonların xarici-iqtisadi ticarətdə aktivliyi ilə izah edilir.

Əhalinin gəlir mənbələrinin iqtisadi rayonlar və cins tərkibinə diqqət yetirdikdə qadınların cəmdə xüsusi çəkisinin kişilərə nisbətən bütün iqtisadi rayonlarda daha yüksək olduğu görünür. 2024-cü ildə ən yüksək xüsusi çəkinin Bakı şəhərində (54,6%), ən aşağı göstəricinin Qarabağda və Şərqi Zəngəzurda (50,1%) (2020-ci ildə isə ən yüksək göstərici Şəki-Zaqatalada (53,7%), ən aşağı göstərici Yuxarı Qarabağda (50,9%) olmuşdur) olduğunu görürük. Həmçinin qadınların gəlirlərinin dövlət sektorunda özəl sektora nisbətən daha yüksək olduğu, pensiya və himayənin xüsusi çəkisinin daha artıq olduğu müşahidə edilir. İqtisadi rayonlarda qadınların orta gəlirinin yüksək olmasının müxtəlif səbəblərini göstərmək olar. Məsələn, məşğulluğun struktur fərqini göstərə bilərik. Belə ki, qadınlar və kişilər müxtəlif fəaliyyət növlərində və fərqli əmək haqqı səviyyələrinə malik müəssisələrdə çalışa bilərlər. İşçilərin sayının fərqli olması da nəzərə alınmalıdır. Çünki hər hansı bir regionda yüksək məvacib alan qadınların sayı çox olduqda qadınların orta göstəricisi yüksələ bilər. Eləcə də, iqtisadi ixtisaslaşma, məsələn turizm, emal sənayesi, təhsil və digər fəaliyyətlərin regional payı orta əmək haqqına təsir edə bilər.

.

Cədvəl

İqtisadi rayonlar və Bakı şəhəri inzibati ərazi vahidi üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manatla

	2010	2015	2020	2021	2022	2023	2024
Azərbaycan Respublikası	331	466,9	707,7	732,1	840,0	933,9	1009,4
Bakı şəhəri	474,8	666,8	927,8	951,3	1080,6	1183,8	1269,3
Naxçıvan Muxtar Respublikası	304,7	399,7	535,0	553,6	610,8	689,0	782,4
Abşeron-Xızı iqtisadi rayonu	246	360,9	582,9	605,9	689,2	774,7	807,3
Dağlıq Şirvan iqtisadi rayonu	209,3	269,8	461,4	471,0	556,2	614,2	647,6
Gəncə-Daşkəsən iqtisadi rayonu	210,2	298,1	506,2	528,0	611,0	683,0	722,5
Qarabağ iqtisadi rayonu	187,1	242,0	409,9	437,4	536,6	602,3	645,3
Qazax-Tovuz iqtisadi rayonu	217	281,1	475,3	498,4	577,4	642,7	686,2
Quba-Xaçmaz iqtisadi rayonu	231,6	303,5	498,3	507,0	577,7	640,2	675,4
Lənkəran-Astara iqtisadi rayonu	218,1	276,2	447,3	460,3	543,8	598,6	634,6
Mərkəzi Aran iqtisadi rayonu	204,5	259,4	439,8	454,4	525,2	588,9	621,2
Mil-Muğan iqtisadi rayonu	220,1	275,7	443,1	454,5	524,2	593,2	634,5
Şəki-Zaqatala iqtisadi rayonu	195,2	255,4	429,8	443,9	514,6	577,5	622,1
Şərqi Zəngəzur iqtisadi rayonu	223,8	258,3	500,3	482,7	583,0	653,0	718,9
Şirvan-Salyan iqtisadi rayonu	237,8	316,9	518,3	542,5	625,0	691,1	727,6

Mənbə: https://www.stat.gov.az/source/labour/ (04.08.2026-cı il tarixə)

Orta aylıq nominal əməkhaqqı 2010-cu ildə 331 manatdan 2024-cü ildə 1009,4 manata qədər yüksəlib. Lakin 2015-ci ildə manatın devalvasiyasına qədər ölkədə orta nominal əmək haqqı 566 ABŞ dolları olduğu halda, 2020-ci ildə bu 416 ABŞ dolları olub. İqtisadi rayonlar üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2010-cu ilə nisbətən 2024-cü ildə fərqli artım göstərmişdir. Ölkə üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 3,05 dəfə artmış, habelə ən yüksək artım Qarabağ iqtisadi rayonunda 3,45 dəfə, ən aşağı artım isə Naxçıvan Muxtar Respublikasında 2,57 dəfə olmaqla müşahidə olunmuşdur.

Ölkəmizdə dövlətin sosial siyasəti çərçivəsində aztəminatlı ailələrə ünvanlı sosial yardımlar göstərilir. 2025-ci ildə 76 min ailə, ümumilikdə 330 mindən çox ailə üzvü bu yardımla əhatə olunmuş, hər ailə üzvünə aylıq orta hesabla 107,52 manat ödənilmişdir. Ehtiyac meyarı 2004-cü ildəki 5 manatdan 2026-cı ildə 300 manata yüksəlmişdir. Həmçinin minimum əməkhaqqı 2004-cü ildəki 12 manatdan 2025-ci ildə 400 manata çatmışdır.

2026-cı ildə yaşayış minimumu ölkəmiz üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün isə 260 manat müəyyən edilmişdir. Lakin istehlak səbətinin tərkibi əhalinin real ehtiyaclarına uyğunlaşdırılmalıdır. Bunun üçün ərzaq məhsullarının, dərmanların və xidmətlərin çəkisi yenidən qiymətləndirilməli, uşaqların müxtəlif yaş qrupları üzrə tələbatları nəzərə alınmalıdır. Həmçinin istehlak səbətinin formalaşdırılmasında regionların iqlim, ekoloji və sosial-mədəni xüsusiyyətləri, eləcə də ev təsərrüfatlarının sorğu nəticələri əsas götürülməlidir.

2005-2025-ci illərdə gəlir və xərclərin dinamikası eyni zamanda makroiqtisadi hadisələrin təsirini əks etdirir. 2005–2010-cu illər neft gəlirləri, infrastruktur layihələri və investisiya axınları ilə müşayiət olunan sürətli artım dövrü kimi xarakterizə edilir. 2010–2015-ci illərdə artım daha mülayim olmuş, 2015-ci ildən sonrakı məzənnə dəyişiklikləri isə manat və dollar ifadəsində göstəricilərin artım nisbətlərinə təsir etmişdir. 2020-ci ildə pandemiya nəticəsində gəlir və xərclərdə azalma müşahidə olunmuş, sonrakı illərdə bərpa prosesi başlamışdır.

Son illərdə istehlak xərclərinin strukturunda keyfiyyət dəyişiklikləri baş vermişdir. Belə ki, 2010-2024-cü illər ərzində istehlak xərclərinin 2,5 dəfə artması fonunda ərzaq məhsullarına çəkilən xərclərin 2,2 dəfə

artmasına baxmayaraq, onların istehlak xərclərinin tərkibindəki xüsusi çəkisi 48,8%-dən 43,5%-ə enmişdir. Bu dəyişiklik istehlak strukturunda müəyyən şaxələnməni göstərir: ərzaq xərclərinin payı azaldıqca digər mal və xidmətlərə ayrılan vəsaitin nisbi əhəmiyyəti artmışdır. Qeyd etmək lazımdır ki, növbəti yeri ev təsərrüfatlarının ayda adambaşına düşən məcmu istehlak xərclərinin tərkibində xüsusi çəkisinə görə 2024-cü ildə su, işıq, qaz və digər yanacaq növlərinə çəkilən xərclər tutur. Kommunal xidmətlər – su, işıq, qaz və digər yanacaq növləri üzrə xərclər 2010–2024-cü illərdə 2,9 dəfə artmış, istehlak xərclərindəki xüsusi çəkisi 6,72 faizdən 7,9 faizə yüksəlmişdir. Bu dinamika kommunal xərclərin ailə büdcəsində artan yükünü göstərir. Enerji səmərəliliyi, mənzil-kommunal infrastrukturunun yenilənməsi və aztəminatlı ailələrin hədəfli dəstəklənməsi xərclərin optimallaşdırılması baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, 2010-2024-cü illər ərzində ev əşyalarına, məişət texnikasına və evə gündəlik qulluğa çəkilən xərclər 2,7 dəfə, 2010-cu ildə istehlak xərclərinin tərkibində xüsusi çəkisi 6,9%-dən 2024-cü ildə 7,6%-ə qədər artaraq, 2010-2024-cü illər üzrə məcmu istehlak xərclərinin tərkibində xüsusi çəkisi isə 8,3% olmuşdur.

Nəqliyyat xərcləri bu dövr ərzində 2,8 dəfə artmış, 2010-2024-cü illər üzrə məcmu istehlak xərclərinin tərkibində 6,4% təşkil etmişdir.

Təhsil xərcləri həmin dövrdə 2,7 dəfə artmış, onların istehlak xərclərində xüsusi çəkisi 1,5 faizdən 1,7 faizə yüksəlmişdir. Bununla belə, 2010–2024-cü illər üzrə təhsil xərclərinin məcmu istehlak xərclərində orta xüsusi çəkisinin 1,76 faiz olması insan kapitalına yönələn xərclərin daha da artırılması zərurətini gündəmə gətirir. Səhiyyə xərclərinin 3,52 dəfə, rabitə xərclərinin 3,15 dəfə, istirahət xərclərinin 3,13 dəfə artması isə xidmətlərə tələbatın genişləndiyini göstərir.

Ən aşağı artım mehmanxana, kafe, restoran və yeməkxana xərclərində olmuşdur. Belə ki, bu xərclər 2005-2019-cu illərdə artımla diqqəti çəksə də, 2020-ci və 2021-ci illərdə pandemiya səbəbindən nisbətən aşağı düşmüşdür. Daha sonra isə 2022, 2023 və 2024-cü illərdə bu xərclər yenə də artımla nəticələnmişdir. Ümumilikdə, 2010-2024-cü illər ərzində bu xərclər 2,03 dəfə artaraq, həmin dövr üzrə məcmu istehlak xərclərinin 7,9%-ni təşkil etmişdir. 2010-cu ildə istehlak xərclərinin 8,55%-ni təşkil etdiyi halda, bu göstərici 2024-cü ildə 7,04%-ə düşmüşdür.

Paltara, ayaqqabıya çəkilən xərclərdə artım 2,04 dəfə olsa da, istehlak xərclərinin tərkibində xüsusi çəkisi 2010-cu ildəki 7,06%-dən 2024-cü ildə 5,83%-ə enmişdir.

Respublikamızda əhalinin istehlak xərclərinin tərkibində ərzaq məhsullarına çəkilən xərclərin getdikcə azalaraq, istirahətə, mədəniyyətə, təhsilə və s. mal və xidmətlərin alınmasına sərf olunması əhalinin yoxsulluq səviyyəsinin azalmasına, eyni zamanda həyat səviyyəsinin yaxşılaşmasına işarədir.

İstehlak xərclərinin regional təhlili göstərir ki, ərzaq xərclərinin xüsusi çəkisi Bakı şəhəri, Şərqi Zəngəzur və Lənkəran-Astara (hər birində 44,8% olmaqla) iqtisadi rayonlarının payına düşür. Ən az ərzaq xərci isə Mil-Muğanda (40,6%) müşahidə olunur. Təhlil göstərir ki, paltar və ayaqqabıya Quba-Xaçmaz (6,7%), kommunal xərclərə Şirvan-Salyan (11,4%), ev əşyaları və məişət texnikasına Mil-Muğan (9,5%), səhiyyə xidmətlərinə Gəncə-Daşkəsən (6%), nəqliyyat xidmətlərinə Quba-Xaçmaz (7,7%), rabitə xidmətlərinə Abşeron-Xızı (4%), istirahət və mədəniyyətə Abşeron-Xızı (4,8%), təhsilə Gəncə-Daşkəsən (2,1%) mehmanxana, kafe və restoranlara Quba-Xaçmaz (9%), digər mal və xidmətlərə isə Gəncə-Daşkəsən (6,5%) daha çox pul xərcləyir.

Ümumilikdə, 2005-ci ildə əhalinin gəlirlərinin 80,72%-i xərclərə yönəldiyi halda, bu rəqəm 2025-ci ilin ilkin məlumatlarına görə 97,6% təşkil etmişdir. Dövlət Statistika Komitəsinin ev təsərrüfatları ilə bağlı apardığı araşdırmaya görə, Azərbaycanda əhalinin cəmi 20 faizinin bütün xərclərdən sonra hansısa gəliri qalır. Doğrudan da, ölkənin sosial-iqtisadi vəziyyətini kifayət qədər dəqiq səciyyələndirən varlı və kasıb arasındakı nisbətdir.

İstehlak strukturunun təhlili sosial rifahın qiymətləndirilməsində mühüm metodoloji nəticə yaradır: eyni məbləğdə gəlir əldə edən ailələrin həyat səviyyəsi onların ərzaq, kommunal, səhiyyə, təhsil və nəqliyyat xərclərinin nisbətindən asılı olaraq fərqlənə bilər. Buna görə də regional siyasətdə yalnız adambaşına düşən gəlir deyil, zəruri istehlak xərclərinin səviyyəsi və ailənin sərəncamında qalan gəlirləri də izlənilməlidir.

İnkişaf etmiş ölkələrdə istehlak səbətinin tərkibində ərzaq məhsullarının çəkisi azaldığı halda, inkişafda olan ölkələrdə əksinə bu göstərici yüksək olaraq qalmaqdadır. Yaşayış minimumu minimal istehlak səbəti əsasında müəyyən edildiyindən istehlak səbətinin tərkibi

müxtəlif əhali kateqoriyası üçün yenidən formalaşdırılmalıdır. Əsasən, kəmiyyət dəyişikliklərinin edilməsinə ehtiyac var. Belə ki, bir sıra məhsulların və xidmətlərin tələbatda çəkisinin artırılması, yenilərinin isə (ət və ət məhsullarının çəkisinin, mütəmadi istifadə edilən dərmanların və s.) əlavə edilməsi zəruridir. Həmçinin 15 yaşa qədər olan uşaqların tələbatlarının məktəbəqədər (0-6 yaş), yeniyetmə yaşına qədər (6-12 yaş) və yeniyetmə yaşında (13-15 yaş) fərqli olması nəzərə alınmalıdır ki, bu həm insan kapitalının inkişafına, həm də əhalinin sağlamlığının davamlı olmasına, gəlirlərinin isə real vəziyyətə adekvat şəkildə indeksasiya edilməsinə xidmət etsin. Ümumiyyətlə, istehlak səbətinin tərkibində dəyişikliklər edilərkən dünya üzrə regionlarla yanaşı, ölkədaxili regionların müqayisəli təhlili aparılmalı və iqlim, ekoloji vəziyyət və adət-ənənələr nəzərə alınmalıdır. Əsasən ölkə üzrə istehlak səbətinin formalaşdırılmasında istifadə edilən məhsul və xidmətlərin tərkibi və çəkisi həm ölkədaxili regionların, həm də Azərbaycanın daxil edildiyi Yaxın Şərq və Mərkəzi Asiya ölkələri regionunun xüsusiyyətləri nəzərə alınmaq şərti ilə ev təsərrüfatlarında yeni sorğuların aparılması əsasında təyin edilərək redaktə edilməlidir.

Dissertasiyada 2005–2021-ci illər üzrə əhalinin gəlirləri ilə son istehlak xərcləri arasında asılılıq ən kiçik kvadratlar üsulu ilə qiymətləndirilmişdir. Eviews tətbiqi proqram paketinə əsasən müəyyən edilmişdir ki, Azərbaycanda əhali gəlirlərinin 1 milyon manat artması digər şərtlər sabit qaldıqda son istehlak xərclərini orta hesabla 860 min manat artırır.

Gəlirlərin əhali qrupları arasında qeyri-bərabər bölüşdürülməsi müxtəlif ölkələrdə müşahidə olunan sosial-iqtisadi problemdir. Bu fərqlər əmək bazarının vəziyyəti, mülkiyyət münasibətləri, iqtisadi siyasət və sosial təminat sistemindən asılıdır. Belə ki, gəlir bərabərsizliyi fərdi xüsusiyyətlərin, təhsil səviyyəsinin, mülkiyyətin bazar şəraitinin və sosial-iqtisadi hadisələrin qarşılıqlı təsiri nəticəsində yaranır. Onun azaldılması üçün məşğulluğun artırılması, bərabər imkanların yaradılması və sosial müdafiənin gücləndirilməsi vacibdir. Bundan başqa, ailədə gəlir əldə edən şəxslərin sayı, əmək qabiliyyətli üzvlərin payı və himayəyə ehtiyacı olan şəxslərin mövcudluğu ailənin maddi vəziyyətinə təsir göstərir. Eyni gəlirə malik ailələrdə üzvlərin sayı fərqli olduqda adambaşına düşən gəlir də fərqlənir. Eyni zamanda, pensiyalar, sosial müavinətlər və ünvanlı sosial yardımlar aşağı gəlirli ailələrin maddi vəziyyətini

yaxşılaşdırır və gəlir bərabərsizliyinin azalmasına kömək edir. Bu tədbirlərin səmərəliliyi ayrılan vəsaitlərdən və əhatə dairəsindən asılıdır.

Eyni zamanda biz hər bir regionun əhalisini nəzərə alaraq Azərbaycanın regionlarında Cini indeksini hesabladıq. Bu, regional səviyyədə əhalinin gəlirləri üzrə bərabərsizlik haqqında daha dəqiq təsəvvür yaradır, çünki burada təkcə mütləq iqtisadi göstəricilər deyil, həm də hər bir regionda yaşayan əhalinin sayı ilə əlaqəsi nəzərə alınır. Təhlil 2024-cü ildə regionların əhalisinin sayı və gəlirləri nəzərə alınmaqla aparılmışdır. Əhali sayı üçün Cini indeksi 0,5638 olmuşdur və əhəmiyyətli bərabərsizliyi göstərir. Adambaşına düşən ÜDM üzrə Cini indeksi 0,3306 olmuşdur. Bu göstərici regionlar arasında yaşayış səviyyəsindəki bərabərsizliyi əks etdirir.

Aparılmış təhlil əsasında müəyyən etmək olar ki, ölkə regional inkişafda müasir inkişaf modeli olan *"yetkin model"* ilə xarakterizə olunur. Belə ki, aparıcı mərkəz olan Bakı ilə digər regionlar arasında əhəmiyyətli fərq var və Bakı dominant iqtisadi mərkəzdir, ÜDM-in təxminən 61%-ni, əhalinin 23%-ni təşkil edir. Bakıda adambaşına düşən ÜDM digər regionlar üzrə orta göstəricidən təxminən 5,2 dəfə yüksəkdir. Periferik rayonlar iqtisadi göstəricilərə görə Bakıya çatmağa çalışır. Əlbəttə regionlarda iqtisadi göstəricilərdə tədricən artım müşahidə olunur, lakin bu artım tempi fərqi tez bir zamanda azaltmaq üçün yetərli deyil. Resursların və investisiyaların qeyri-bərabər paylanması müşahidə edilir. İqtisadi resurslar əsasən paytaxt regionunda cəmləşib. Adambaşına düşən ÜDM üzrə Cini indeksi (0,3306) regionlar arasında yaşayış səviyyəsində əhəmiyyətli bərabərsizliyi göstərir. Şərqi Zəngəzur inkişafının ilkin mərhələsində olan ən zəif iqtisadi rayondur. Dağlıq Şirvan adambaşına düşən ÜDM-in aşağı olduğu iqtisadi cəhətdən geridə qalmış rayonlardan biridir. Bakının yaxınlığında yerləşən Abşeron-Xızı paytaxta yaxın olduğu üçün daha sürətli inkişaf əlamətlərini göstərir. Gəncə-Daşkəsən ikinci mühüm iqtisadi mərkəzdir ki, o da *"yüksək inkişafa yetişmə modeli"* çərçivəsində inkişaf edir, lakin digər regionlara nisbətən daha yüksək göstəricilərə malikdir. Regional iqtisadi bərabərsizlik daxili miqrasiyanı təşviq edir və bu, balanssızlığı daha da gücləndirir.

Deməli, əhali sıxlığı yüksək olan regionlar daha yüksək ÜDM-ə malikdirlər. Əhali nəzərə alındıqda bərabərsizliyin azalması onu göstərir ki, iqtisadi konsentrasiya əhalinin təmərküzləşməsinə qismən uyğundur,

baxmayaraq ki, regional tarazlıq hələ də qalmaqdadır. Beləliklə, Azərbaycanın regionları arasında iqtisadi bərabərsizlik hətta əhalinin sayı nəzərə alındıqda belə əhəmiyyətli olaraq qalır. Bakıda iqtisadi resursların yüksək konsentrasiyası regional inkişafda ciddi disbalans yaradır. Mütləq ÜDM (0,5638) və adambaşına düşən ÜDM (0,3306) üzrə Cini indeksi arasındakı əhəmiyyətli fərq onu göstərir ki, bərabərsizlik qismən əhalinin qeyri-bərabər paylanması ilə bağlıdır. Daha tarazlaşdırılmış regional inkişaf üçün az inkişaf etmiş, xüsusilə adambaşına düşən ÜDM aşağı olan regionlarda iqtisadi fəallığın artırılması üçün məqsədyönlü tədbirlərə ehtiyac vardır. Aparılmış regional təhlil ölkənin iqtisadi potensialının ərazi üzrə qeyri-bərabər bölüşdürüldüyünü göstərir.

Beləliklə, Azərbaycanın regional inkişafı yetkin inkişaf modelinə uyğundur, burada bir dominant mərkəz (Bakı) iqtisadi göstəricilərə görə digər regionları əhəmiyyətli dərəcədə qabaqlayır və periferik ərazilər tədricən bu fərqi azaltmağa çalışır. Yüksək Cini indeksi regionlar arasında əhəmiyyətli iqtisadi bərabərsizliyi təsdiqləyir ki, bu da regional inkişafda daha yüksək inkişafa yetişmə modelinin əsas göstəricisidir.

Regionlararası fərqlərin azaldılması üçün infrastrukturun inkişafı, kiçik və orta sahibkarlığın dəstəklənməsi, güzəştli kreditlərin verilməsi və peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması vacibdir. Bununla yanaşı, istehlakçıların hüquqlarının qorunması, əsassız qiymət artımlarına qarşı effektiv şikayət mexanizmlərinin yaradılması və sağlam qidalanmanın təşviqi əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir.

Dissertasiyanın **"Azərbaycanda əhalinin gəlir və xərclərinin tənzimlənməsi perspektivləri"** adlanan **üçüncü fəslində** inflyasiya səviyyəsinin əhali gəlirləri və xərclərinə təsiri istiqamətləri və yoxsulluq səviyyəsinin azaldılmasında gəlir və xərclərin rasionallaşdırılması yolları araşdırılmışdır. Gəlir artımının istehlak qiymətləri indeksindən geri qaldığı 2016, 2017, 2020 və 2021-ci illər real gəlirlərin qorunması baxımından riskli dövrlər kimi qiymətləndirilmişdir.

Dissertasiyada göstərilən yoxsulluq səviyyəsi 2005-ci ildə 29,3 faiz, 2010-cu ildə 9,1 faiz, 2015-ci ildə 4,9 faiz, 2020-ci ildə 6,2 faiz, 2024-cü ildə isə 5,3 faiz təşkil etmişdir. Bu dinamika uzunmüddətli azalma meylinin mövcudluğunu, eyni zamanda iqtisadi şokların yoxsulluq göstəricilərinə yenidən təsir edə bildiyini göstərir.

Tədqiqatda minimum istehlak səbətinin tərkibinin müntəzəm

yenilənməsi, yaşayış minimumunun regional qiymət fərqləri nəzərə alınmaqla hesablanması, aztəminatlı ailələr üçün xüsusi istehlak qiymətləri göstəricisinin hazırlanması və sosial transferlərin differensial indeksləşdirilməsi istiqamətləri əsaslandırılmışdır.

Tədqiqatda Azərbaycanda yoxsulluğa təsir göstərən əsas amillər araşdırılmışdır. Müəyyən olunmuşdur ki, yoxsulluq səviyyəsinə ailənin tərkibi, ailə başçısının təhsil səviyyəsi, cinsi və yaşı təsir göstərir. Ailə başçısının təhsil səviyyəsi yüksəldikcə gəlir imkanları genişlənir və yoxsulluq riski azalır. Belə ki, ali təhsilli ailə başçılarının olduğu ev təsərrüfatlarında adambaşına aylıq gəlir 409,4 manat, orta-ixtisas təhsillilərdə 359,5 manat təşkil etmişdir.

Ailə başçısının cinsinə görə də gəlir fərqləri müşahidə olunur. Ailə başçısı qadın olan ailələrdə gəlirlər kişilərə nisbətən üstünlük təşkil edir. Ümumilikdə, qadınların gəlirləri daha yüksəkdir, təkcə özünüməşğulluqdan əldə edilən gəlir baxımından kişilərin gəlirləri üstünlük təşkil edir. 2024-cü ildə qadın ailə başçısı olan ev təsərrüfatlarında adambaşına aylıq gəlir 362,2 manat, kişi ailə başçısı olanlarda isə 351,6 manat olmuşdur. Yaş qrupları üzrə ən aşağı gəlir 30–39 yaşlı ailə başçılarının olduğu ev təsərrüfatlarında qeydə alınmışdır. Adətən bu göstərici artdıqca ailənin yoxsul olma ehtimalı azalır.

Son illər aktual məsələlərdən biri də rəqəmsallaşma və süni intellektdir. Rəqəmsallaşma və süni intellekt regionlarda əhalinin gəlir və xərclərinə həm müsbət, həm də mənfi təsir göstərə bilir. Müsbət hal kimi, bu texnologiyaların yeni iş imkanlarının yaranmasına, sahibkarlığın inkişafına, kənd təsərrüfatında məhsuldarlığın artmasına və əhalinin bazarlara çıxış imkanlarının genişlənməsinə şərait yaratmasını göstərə bilərik. Eyni zamanda, elektron xidmətlər və avtomatlaşdırma bəzi gündəlik və istehsal xərclərinin azalmasına kömək edir. Digər tərəfdən isə texnoloji avadanlıqlara, internetə və rəqəmsal bacarıqların artırılmasına çəkilən xərclər də nəzərə alınmalıdır. Süni intellektin tətbiqi bəzi ənənəvi peşələrə tələbatı azalda biləcəyi üçün əmək bazarında yeni bacarıqlara ehtiyac yaranır.

Ümumilikdə, rəqəmsallaşma və süni intellekt regionlarda gəlirlərin artırılması, xərclərin optimallaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi üçün mühüm imkanlar yaradır. Lakin bu imkanlardan bütün əhalinin bərabər faydalanması üçün müasir infrastrukturun

qurulması, rəqəmsal təhsilin inkişafı və texnologiyaların əlçatanlığının təmin edilməsi vacibdir.

Statistik göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan qarşıdakı illərdə də böyük iqtisadi nailiyyətlər əldə edə biləcək. Müxtəlif nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da ölkəmizdə insan inkişafı, yoxsulluğun azaldılması sahəsində irəliləyişlər olduğu göstərilir. Dünya Bankının "Azərbaycan: Həyat Şəraitinin Qiymətləndirilməsi Hesabatı"na görə, ölkəmiz insan inkişafı indeksi və yoxsulluq səviyyəsinin azaldılması sahəsində böyük nailiyyətlər əldə etmişdir. BMT-nin və digər beynəlxalq təşkilatların insan inkişafı ilə bağlı hesabatlarında da Azərbaycanın əldə etdiyi uğurlar xüsusi vurğulanır. Dünya Bankının 2025-ci il İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan 0,789 indeks göstəricisi ilə 193 ölkə arasında 81-ci yerdə qərarlaşmaqla "yüksək insan inkişafı" kateqoriyasında olan ölkələr sırasına daxil olub.

Nəticə və təkliflər

Aparılmış araşdırma göstərir ki, əhalinin pul gəlirləri və istehlak xərcləri qarşılıqlı əlaqəli sosial-iqtisadi göstəricilərdir. Gəlirlərin artması istehlak imkanlarını genişləndirir, lakin xərclərin gəlirlərdən daha sürətlə artması yığım imkanlarını və ev təsərrüfatlarının maliyyə dayanıqlığını zəiflədə bilər. Regional fərqlərin azaldılması üçün yalnız sosial transfertlərin artırılması deyil, yerli iqtisadi fəaliyyətin və məhsuldar məşğulluğun genişləndirilməsi də vacibdir.

- İqtisadi rayonların müqayisəli üstünlüklərinə əsaslanan sahəvi məşğulluq proqramları hazırlanmalı, iş yerləri əməkhaqqı, davamlılıq, formal məşğulluq və qadınların, gənclərin iştirakı ilə qiymətləndirilməlidir.
- Kiçik və orta sahibkarlığa dəstək yerli dəyər zəncirlərinin, kənd təsərrüfatı məhsullarının emalı, qablaşdırılması, saxlanması və logistikasının inkişafına yönəldilməlidir.
- Qadınlar və gənclər üçün peşə hazırlığı, rəqəmsal bacarıqlar, məsafədən iş və elektron ticarət üzrə praktiki proqramlar genişləndirilməlidir.
- Qarabağ və Şərqi Zəngəzurda bərpa layihələri yerli məşğulluq, yerli işçi qüvvəsinin hazırlanması və kiçik biznesin satınalma zəncirlərinə qoşulması ilə əlaqələndirilməlidir.
- Turizm, aqroturizm, ekoturizm və yerli xidmətlər üzrə mikro sahibkarlıq təşviq edilməlidir.

- Minimum istehlak səbətinin tərkibi ev təsərrüfatları sorğuları əsasında müntəzəm yenilənməli, məhsul və xidmətlərin tərkibi və çəkisi yenidən qiymətləndirilməlidir.
- Yaşayış minimumunun hesablanmasında iqtisadi rayonlar üzrə qiymət fərqləri nəzərə alınmalıdır.
- Aztəminatlı ailələr, pensiyaçılar və uşaqlı ev təsərrüfatları üçün inflyasiyanın təsirini ayrıca ölçən istehlak qiymətləri göstəricisi hazırlanmalıdır.
- Ünvanlı sosial yardımın təyinində ailə tərkibi, himayədə olan şəxslər, sağlamlıqla bağlı zəruri xərclər, yaşayış yeri və əmək bazarına çıxış imkanları nəzərə alınmalıdır.
- Sosial transferlərin indeksləşdirilməsi aşağı gəlirli və sabit gəlirli qrupların istehlak strukturuna uyğun differensial prinsip əsasında təkmilləşdirilməlidir.
- Aztəminatlı ev təsərrüfatlarında enerji səmərəliliyinin artırılması və kommunal xərclərin azaldılması proqramları tətbiq edilməlidir.
- Regional gəlir və xərc statistikası iqtisadi rayon, şəhər-kənd, ailə tərkibi, gəlir kvintili, məşğulluq statusu və gəlir mənbəyi üzrə vahid formatda toplanmalıdır.
- Ev təsərrüfatları sorğularının reprezentativliyi və dövriliyi artırılmalı, nağd və natura gəlirləri, qeyri-formal fəaliyyət, transfertlər, borclar və yığım ayrıca qeydə alınmalıdır.
- Hər iqtisadi rayon üzrə adambaşına real gəlir, istehlak xərci, ərzaq və kommunal xərclərin payı, yığım norması, yoxsulluq riski və məşğulluğu əhatə edən indikatorlar müəyyən edilməlidir.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Məmmədova A.O. Əhalinin sosial müdafiəsi. Az.DİU, Elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş konfrans materialları, Bakı, 2013, səh. 113-115
2. Мамедова А.О. Индексация доходов населения. “Экономика и предпринимательство”, №7 (60) 2015, Москва. ISSN 1999-2300, стр. 194-199
3. Məmmədova A.O. Yoxsulluq və Azərbaycanda onun azaldılması məsələləri. “Əmək və sosial problemlər” (Elmi əsərlər toplusu), № 2 (16) 2015, səh. 181-187

4. Məmmədova A.O. Azərbaycanda yoxsulluğa səbəb olan amillər və onların aradan qaldırılması yolları. "Kooperasiya" elmi-praktiki jurnal. № 2 (41)-2016, Bakı. İSSN 2218-91-49, səh. 90-97
5. Мамедова А.О. Доходы и расходы населения, как индикаторы уровня жизни. XII Международная научно-техническая конференция, 19-20 апреля, 2018 года, Могилев, стр. 321-322
6. Məmmədova A.O. Respublikamızda əhalinin cari məşğulluq səviyyəsinin yaşayış səviyyəsinə təsiri. The XVII International Scientific Symposium. Karabakh: Way To Victory, Proceedings book, August 28/2021, Göteborg, Sweden. ISBN: 978-605-74249-3-8, səh. 300-304
7. Мамедова А.О. Влияние инфляции на доходы населения. Azərbaycan Respublikası və Ukrayna Respublikası arasındakı əməkdaşlığın 30 illiyi münasibətilə Ukraynada təşkil olunan "Civilizational bridges between people and cultures" adlı XXV Beynəlxalq elmi konfrans, Ukrayna, 23 aprel 2022/ İSBN: 978-605-71427-5-7, səh. 152-155
8. Məmmədova A.O. İqtisadi inkişaf modelləri və onların əhalinin yaşayış səviyyəsinə, gəlir və xərclərinə təsiri. "Şuşa ili"nə həsr olunan Gənc alimlərin Beynəlxalq elmi Konfransı, Gəncə Dövlət Universiteti, 9-10 dekabr 2022, səh. 24-27
9. Məmmədova A.O. Əhalinin gəlir və xərclərinin qiymətləndirilməsi metodologiyası. Azərbaycanın Vergi Jurnalı, №2 (145) 2023, səh. 65-80
10. Məmmədova A.O. Əhalinin həyat səviyyəsinin formalaşmasında gəlir və xərclərin rolu. "Qloballaşan dünyada elmin aktual problemləri" adlı multidisiplinar beynəlxalq elmi konfrans. Əskişəhər, Türkiyə. 30 sentyabr 2023, səh. 344-349
11. Məmmədova A.O. Azərbaycan Respublikasının regionları üzrə əhalinin pul gəlirləri və istehlak xərclərinin qiymətləndirilməsi. "İpək yolu", Azərbaycan Universitetinin Elmi Jurnalı, №1 – 2024, səh.72-83
12. Məmmədova A.O. Azərbaycan əhalisinin gəlir və xərclərinin dünya ölkələri ilə müqayisəli təhlili. "Dayanıqlı inkişaf" jurnalı, Mingəçevir Dövlət Universiteti. №1 – 2024, səh. 67-75

Dissertasiyanın müdafiəsi “16” dekabr 2026-cı il tarixində saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 14 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.11.2026
Kağız formatı: 60x84 1/16.
Həcmi 43193 işarə.
Tiraj: 100.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809